# Nəriman əmi

*Ustad şairimizin*
*90 illik yubileyinə*

*Ey böyük ustad şair, məndən*
*sordular səni,*
*Dedim qaynar bulaqdır, bulaq,*
*Nəriman əmi.*
*Vurğundan, Vidadidən, Molla*
*Pənah Vaqifdən,*
*Nişanədir, soraqdır, soraq,*
*Nəriman əmi.*

*Çiçək dərib Poyluda, Kəsəmən*
*ellərində,*
*İz qoyubdur Xramın, Kürün*
*sahillərində,*
*Pir, ziyarət, ocaqdır, ocaq,*
*Nəriman əmi.*

*Ağstafa, Qazaxdır ata yurdu,*
*məkanı,*
*Ulu bir türk oğludur, vətən bilir Turanı.*
*Damarında Oğuz xan, Atillanın saf qanı,*
*Yolumuzda çıraqdır, çıraq,*
*Nəriman əmi.*

*İlhamını vətəndən, eldən alıb*
*deyirlər,*
*Uca dağlar, qayalar önündə baş*
*əyirlər.*
*Sinəsində nə qədər hikmət dolu*
*şeirlər,*
*Oxunmamış varaqdır, varaq,*
*Nəriman əmi.*

*Şair Məzahir Turan unudarmı*
*bu adı? -*
*Türküstan ellərinin doxsan yaşlı*
*övladı.*
*Yüzdə də gümrah görək bu*
*qocaman ustadı,*
*Arxamızda dayaqdır, dayaq,*
*Nəriman əmi.*

***Məzahir TURAN***